# STRATEJİ İNKİŞAF PLANI



# DƏYƏRLƏRİMİZ

### Yeniliklərimizlə faydalı oluruq

Azərbaycan investisiya bazarını genişləndirmək məqsədi ilə daim yeniliklər təqdim edir, investorların yeni və fərqli maliyyə alətlərimizdən faydalanmasını təmin edirik.

### Cəmiyyətə dəyər qatırıq

InvestAZ olaraq investisiya bazarında yeni iştirakçıların yetişdirilməsinə töhvə vermək və bazarın ölkəmizə fayda verməsini istəyirik.

### Daim öyrətməyə çalışırıq

Təhsil sahəsindəki üstünlüklərimizlə investorlara öz potensiallarını kəşf etməklərində yardımçı olur, onlara bu sahədə peşəkar olmağı öyrədirik.

### Müştərilərə fərqli deyil, fərdi yanaşırıq

Biz heç bir investoru portfelinin böyüklüyünə görə ayırmırıq. İnsanların investisiyaya olan böyük həvəsi bizim əsas prioritetimizdir.

# MİSSİYASIMIZ

Cəmiyyət üçün faydalı olmaq və faydalar yaratmaq naminə çalışırıq.

Əsas missiyamız isə uğurumuzu digər uğur qazanmaq istəyənlərlə bölüşərək maliyyə və investisiya sektorunu ölkəmizdə gəlirli bir sahə olaraq tanıdıb insanlarımıza bu istiqamətdə xidmət etməkdir.

Qabaqcıl texnologiyaların və müştəri xidmətinə yenilikçi yanaşmaların tətbiqi ilə sektorun inkişafını daha da sürətli hala gətirir və bunu əsas öhdəlik kimi bilirik.

- **İnnovasiya**
- **Mükəmməllik**
- **Məsuliyyət**
- **Etibarlılıq**
- **Produktivlik**
- **Sinerji**

# VİZYONUMUZ

Müasir, yenilikçi və dinamik inkişaf edən bir maliyyə təşkilatı olaraq müştərilərimiz üçün etibarlı tərəfdaş olmaq əsas vizyonlarımızdandır.

Davamlı böyümə və dəyər yaratmaqla bu sektorun inkişafı üçün çalışmağı özümüzə vacib məqsəd bilirik və bu istiqamətdə uğurla addımlayırıq.

2021-2024-cü il üçün

# STRATEJİ HƏDƏFLƏRİMİZ



- Bazar mövqeyinin yaxşılaşdırılması
- Xidmətlərin effektivliyini artırılması, yeni alətlərin əlavə edilməsi
- Marja ticarəti xidmətində müştəri sayının 30.000’ə çatdırılması
- Şirkət aktivlərinin artırılması yönündə məhsul və xidmət keyfiyyətinin artırılması
- Korporativ daxili bazarda bazar payının artırılması
- Xidmət əhatəsinin genişləndirilməsi
- Müştərilərə ofisə gəlmədən ASAN imza vasitəsilə müqavilə imzalama üstünlüyü vermək
- Şirkət məhsullarının rəqəmsal dönəmə tam uyğunlaşdırılması

# MALİYYƏ BAZARLARINA BİRBAŞA ÇIXIŞ

***InvestAZ şirkətinin başlıca məqsədi müasir texnoloji yeniliklər əsrində, operativ və gəlirli sərmayə imkanlarına tələbin artdığı bir dövrdə istər fiziki şəxs olan, istərsə də korporativ müştərilərə likvid maliyyə alətlərindəki gəlir fürsətlərindən faydalanma imkanı təmin etməkdir. İnvest-AZ üçün əsas hədəf maliyyə bazarlarında "A"-dan "Z"-yə bütün növ investisiya tələblərinə cavab verəcək məhsul və xidmətlər yaratmaq və bundan hər bir şəxsin dünyanın istənilən yerindən sərbəst şəkildə faydalana bilməsini təmin etməkdir.***



# MAKSİMAL LİKVİDLİK TƏMİNATI

*Məşhur bank və broker şirkətləri ilə əməkdaşlıq sayəsində InvestAZ müştərilərinin istənilən həcmdə birja ticarəti əməliyyatlarında maksimal likvidliyi təmin etməyə nail olacaqdır.*



# BESY BID, BEST ASK

***InvestAZ şirkətinin Likvidlik Təminatı Sistemi müştərilərə müvafiq sövdələşmə anına ən uyğun alış/satış qiymətləri ilə ticarət etməyə və beləliklə dinamik birja şərtlərində rəqabətli üstünlüklərdən faydalanmağa imkanı yaradacaqdır.***

| BID | ASK |
|---|---|
| 1.33090 | 1.33120 |
| 1.33093 | 1.33118 |
| 1.33090 | 1.33114 |
| 1.33092 | 1.33113 |
| 1.33092 | 1.33118 |
| 1.33094 | 1.33120 |
| 1.33095 | 1.33119 |



# RİSKSİZ SƏRMAYƏ HƏRƏKƏTİ

*Müştərilərin pul vəsaitləri vahid pəncərə sistemi ilə Mərkəzləşmiş Bank Hesabına köçürüləcək və müştərilərin vəsaiti yalnız bu hesabla şəxsi bank hesabları arasında hərəkət edəcəkdir. Beləliklə, müştərilərin sərmayə hərəkətlərində təhlükəsizlik maksimum səviyyədə təmin edilmiş olacaqdır.*



# DÜNYA MALİYYƏ MƏRKƏZLƏRİNƏ İNTEQRASİYA

*InvestAZ yalnız lokal səviyyədə deyil, beynəlxalq səviyyədə də maliyyə bazarlarının aktiv iştirakçısıdır və bu sahədə təşəbbüslərini artımağa davam edəcəkdir. Bu bazarlarda əldə etdiyimiz təcrübə və qazandığımız nəaliyyətlər bizə hər bir müştərimizin sərmayə ehtiyaclarına daha peşəkar investisiya həlləri təqdim etməyimizə yardım edəcəkdir.*



# GENİŞ ÇEŞİDDƏ LİKVİD TİCARƏT ALƏTLƏRİ

***Sərbəst kapital ehtiyatlarına malik hər kəs sərmayəsini İnvest-AZ vasitəsilə ən müxtəlif sahələrə investisiya edə bilməli və ya kapital ehtiyatlarını İnvest-AZ şirkətinin idarəçiliyinə təqdim etməklə peşəkar investisiya proqramlarından divident qazana bilməli - seçim nə olursa olsun İnvest-AZ yatmış kapitalı gəlirli sərmayəyə çevirəcəkdir.***

| Valyuta cütləri | Birja indeksləri | Qiymətli metallar, enerji daşıyıcıları və əmtəələr | Səhmlər |
|---|---|---|---|
| EURUSD | DJI | GOLD | #AA |
| GBPUSD | NASDAQ | SILVER | #AAPL |
| USDCHF | DAX | OIL | #AIG |
| USDJPY | FTSE | WHEAT | #C |
| AUDUSD | CAC40 | PLATINUM | #DELL |
| USDCAD | RTS | ALUMINUM | #BAC |
| USDTRY | HANG | ALALLOY | #CAT |
| NZDUSD | NIKKEI | COPPER | #DD |
| EURPLN | S&P500 | LEAD | #GE |
| EURSEK | TRX30 | NICKEL | #IBM |
| USDDKK | | TIN | #MCD |
| USDHUF | | ZINC | #MSFT |
| USDNOK | | COTTON | #WMT |
| USDHKD | | | #XOM |

# PEŞƏKAR BİRJA TƏDRİSİ

*Birja ticarətində uğurların açarı peşəkar bilikdir. Məhz bu faktoru nəzərə alaraq İnvest-AZ maliyyə bazarları üzrə professional bilik və təcrübələri müştəriləri ilə paylaşmaq üçün professional tədris sistemi qurmuşdur. Birja ticarətinə nəzəri və praktiki hazırlığı peşəkar şəkildə artırmağa imkan yaradan Tədris Mərkəzimiz ən müasir texniki imkanlara və vasitələrə malikdir.*



# MÜNTƏZƏM MƏLUMAT VƏ TEXNİKİ DƏSTƏK XİDMƏTİ

*InvestAZ şirkətinin dünya standartlarında qurulmuş Mərkəzi CRM sistemi müştərilərin hesab açılışı, ticarət və bank hesabları arasında pul köçürmələri, eləcə də şirkətlə müştəri arasında məlumat mübadiləsi proseslərini tam şəkildə mərkəzləşdirməyə və avtomatlaşdırmağa imkan yaradacaqdır.*



- Vahid məlumat bazası
- Onlayn idarəetmə sistemi
- Çoxpilləli inteqrasiya
- Əhatəli hesabatlar
- Avtomatik toplu mail sistemi
- Analitika və statistika



AZ

# TƏŞƏKKÜRLƏR